**Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında "İnkişaf üçün kredit haqqında Sazişi (Suvarma-Drenaj İnfrastrukturunun Bərpası və Tamamlanması Layihəsi)" Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi barədə**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

1. Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında "İnkişaf üçün kredit haqqında Sazişin (Suvarma-Drenaj İnfrastrukturunun Bərpası və Tamamlanması Layihəsi)" Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının maliyyə naziri Əvəz Əkbər oğlu Ələkbərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası adından imzalama səlahiyyətinin Azərbaycan Respublikasının maliyyə naziri Əvəz Əkbər oğlu Ələkbərova verilməsi barədə Beynəlxalq İnkişaf Assosiasiyasına müvafiq bildiriş göndərsin.

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev**

**Bakı şəhəri, 24 iyul 2000-ci il**
**№ 481**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 2988.**